**Respublika.** - 2024.- 7 iyul. - № 140. - S. 11.

# Ağ Şəhər – Yaşıl Ada

## Bu gözəl məkan COP29-un qonaqlarını da heyran edəcək

**Zümrüd Qurbanqızı**

**Ağ Şəhər. İyulun 7-də Bakının bu yeni, müasir mərkəzində Azərbaycan Avtomobil Federasiyasının (AAF) təşkilatçılığı ilə Elektrikli Avtomobil Festivalı keçiriləcək. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində, həmçinin COP29 ərəfəsində bu Yaşıl Adada təşkil olunan festivalda "yaşıl" avtomobillər nümayiş etdiriləcək...**

Bakı XIX əsrin ikinci yarısından sonra sürətlə tərəqqi etməyə başlamışdı ki, bu da neft sənayesinin inkişafı ilə bağlı idi. Şəhər getdikcə iki yerə ayrılırdı: İçəri şəhər və Qara şəhər. Qara şəhər limanın ikinci hissəsindən başlayır, İçəri şəhəri əhatə etməklə Zığa qədər uzanırdı. Neft emal edən zavodlar, neft anbarları, benzin rezervuarları, mis, çuqun əridən zavodlar, gəmi tərsanəsi bu ərazidə idi. Burada gecə-gündüz göydən his-pas yağır, qara tüstü, boz-sarı buxar göy üzünü bürüyürdü. Ərazidəki bütün evlər qara rəngdə idi, hətta küçələr, ağaclar da bu rəngdə idi. Bu vəziyyət sovet dönəmində uzun illər davam etmişdi...

Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks tədbirlər planı"na əsasən Bakı Ağ Şəhər irimiqyaslı ekoloji şəhərsalma layihəsi kimi reallaşdırılmağa başlandı... Ağ Şəhərin təməli 2011-ci il dekabrın 24-də qoyulub. Mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak edib. Beləcə, 150 ildən çox neft sənayesinin inkişafı sayəsində çirklənərək ekoloji fəlakətə çevrilmiş Qara şəhər kimi tanınan bu ərazinin gələcək ağ günlərinin başlanğıcı qoyulub. 2016-cı il dekabrın 24-də isə Bakı Ağ Şəhərin təməlinin qoyulmasının 5-ci ildönümündə ilk yaşayış kvartalı olan Yaşıl Adanın açılışı qeyd edilib. Həmin tədbirdə, həmçinin yeni Fəvvarələr Meydanı məhəlləsində parkın təməli atılıb.

2014-cü il dekabrın 24-də Bakı Ağ Şəhərin ilk landmark binası və giriş qapısı sayılan Bakı Ağ Şəhər Ofis Binasının açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak edib. Böyük Britaniyanın "Atkins" memarlıq bürosu tərəfindən layihələndirilən Ofis Binası Azərbaycanın və regionun BRE Global müstəqil dəyərləndirmə orqanı tərəfindən BREEAM ekoloji sertifikatına layiq görülüb.

Bakı Ağ Şəhərin Mərkəzi Park məhəlləsində 2017-ci ildə istifadəyə verilmiş Paris evlərindən əlavə 36, 20 və 8 mərtəbəli binalar, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binaları, ticarət və iaşə obyektləri, məktəb və inzibati binalar tikilib. Layihələndirmə işləri zamanı inşası nəzərdə tutulmuş Bakı Metropoliteni stansiyalarının memarlıq üslubu üzrə konsepsiyası da hazırlanıb.

Mərkəzi Park yaşayış massivinin ərazisində yaşıl zonalar, parklar, xiyabanlar da nəzərdə tutulub. Onların arasında Dağdağan bağı da var. Dağdağan ağacı Azərbaycanın simvoludur, vətəni Qarabağdır. Ağ Şəhərə də dağdağan ağacları elə Qarabağdan gətirilib. Bir sözlə, hazırda Bakı buxtasının mərkəzində yerləşən Qara şəhərin dirçəlməsi üçün perspektivlər yaranıb, paytaxtın mərkəzinin şərq hissəsində, dinamik inkişafda olan şəhər infrastrukturu buranı cəlbedici məkana çevirib. İdeyanın möhtəşəmliyi, professionallıq Bakının müasir şəhərsalmanın ən son tendensiyalarına inteqrasiyasını təmin edir. Bununla da Bakı Ağ Şəhər layihəsi dünyanın qabaqcıl və müasir şəhərsalma layihələri səviyyəsinə çıxır. Yaşıl Adanın gözəlliyinin şahidi olmaq üçün bu ərazidən sadəcə bir dəfə ötüb keçmək kifayətdir.

Beləliklə, layihənin mərkəzi hissəsini əhatə edən Bulvar küçəsindəyik. Burada quraşdırılmış yerli və xarici sənət ustalarının incəsənət əsərləri sadəcə zövq oxşamır, hər biri bir nağıl, əfsanə danışır...

...Heykəltaraş Enrike Kabreranın "La Gran Manzana" ("Böyük alma") əsəri müəllifin ən məşhur layihələrindən biridir. Nyu-Yorkda quraşdırılmış bu sənət əsəri şəhərin rəmzi sayılır və şəhər sakinlərini də, qonaqları da heyran edir. Orijinalı ABŞ-da olan "La Gran Manzana"nın dünyada ikinci nüsxəsi Bakı Ağ Şəhərdə sərgilənir.

Əjdaha Şərq təqviminə görə 2024-cü ilin rəmzi sayılır. Azərbaycanın MAAS incəsənət qrupunun müasir poliqonal üslubda hazırladığı "Əjdaha" adlı heykəlin hündürlüyü 4,2 metrdir.

Cozef Klibanskinin "Mütəfəkkir"i dramatik bir əsərdir. Bürüncdən hazırlanıb, dünyaca məşhurdur. 2014-cü ildə Bakıda olan sənətkar şəhərin zəngin memarlığından, qədimliklə müasirliyin yaratdığı sintezdən ilham alaraq Azərbaycanın baş şəhərinin gözəlliyini tərənnüm edən "Gözəl Bakı" əsərini yaradıb. Həmin əsər indi Ağ Şəhərin küçələrinə yaraşıq verir.

2022-ci ilin dekabrında dövlət başçısı Qarabağ Atları Meydanında Qarabağ Atları Kompleksinin təməlini qoyub. Görülən işlərlə tanış olandan sonra deyib: "Məqsədimizə çatmışıq, şəhər içində artıq şəhər var". Tikintisinə 2020-ci ildə başlanılan, Azərbaycanın Vətən müharibəsində qələbəsinə və suverenliyinin tam bərpasına həsr olunan "Ağ Şəhər 2020 Biznes Mərkəzi" Mərkəzi Bulvar küçəsində tikilib. Bina ətraf mühitin mühafizəsi siyasətinə tam uyğundur və BREEAM beynəlxalq ekoloji sertifikatına layiq görülüb. Bina Carbon Risk Real Monitor (CRREM) sistemindən istifadə etməklə daşınmaz əmlakın karbon risklərinin qiymətləndirilməsi prosedurundan uğurla keçib. Bu qiymətləndirmə ekoloji davamlılıq prinsiplərinə uyğun olaraq Almaniyanın TÜVSÜD təşkilatı tərəfindən aparılıb. Bu isə onun "yaşıl bina" standartlarına uyğun olduğunu təsdiqləyir. CRREM-in tələblərinə uyğun olaraq binanın damında günəş panelləri quraşdırılacaq. Ümumiyyətlə, Ağ Şəhərdə yeni binaların layihələri hazırlanarkən onların yerli ekoloji ənənələrə, dünyanın müasir ekoloji tələblərinə uyğun olaraq "yaşıl bina", enerjidən qənaətli istifadə prinsiplərinə və beynəlxalq BREEAM, LEED sertifikatlarına uyğunlaşdırılması əsas götürülür. Azərbaycanlı mütəxəssislərlə yanaşı, dünyanın bir sıra aparıcı mühəndis və memarlıq şirkətləri, o cümlədən məşhur "Atkins" şirkəti, "Foster-Partners" memarlıq şirkəti, ABŞ-ın bu sahədə böyük təcrübəyə malik olan "F-A Architects" arxitektura bürosu, UN Studio, Callison RTKL, Gensler və bir sıra digər şirkətlər də Ağ Şəhərə cəlb edilib.

Bakı Ağ Şəhər dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi tanınır, Honkonqda "MIPIM Asia Awards 2011" müsabiqəsində "Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi" nominasiyasında, Dubayda "Cityscape Global" və bir sıra sərgilərdə "Ən yaxşı şəhərsalma layihəsi" kimi müxtəlif mükafatlar alıb. Bakı Ağ Şəhər uğurlu, irimiqyaslı ekoloji layihə hamının sevdiyi Yaşıl Adadır.